# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## “Qeyri-müntəzəm sərnişin daşınması üçün formulyarın forması”nın təsdiq edilməsi haqqında

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 4 iyul tarixli 792 nömrəli, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2011-ci il 20 iyul tarixli 472 nömrəli, “Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və “Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli

Fərmanının 2.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Qeyri-müntəzəm sərnişin daşınması üçün formulyarın forması” təsdiq edilsin (əlavə olunur).

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 mart 2024-cü il

№ 157

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2024-cü il 14 mart
tarixli 157 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Qeyri-müntəzəm sərnişin daşınması üçün formulyarın forması

________________________ (seriyası və nömrəsi)

________________________ (tərtib edilmə tarixi (gün, ay, il)

1. Daşıyıcının rekvizitləri

____________________________________________________________

(fərdi sahibkar olduqda - soyadı, adı, ünvanı, VÖEN-i, buraxılış vəsiqəsinin qeydiyyat nömrəsi, hüquqi şəxs olduqda - adı, ünvanı, VÖEN-i, buraxılış vəsiqəsinin qeydiyyat nömrəsi)

2. Sifarişçinin (təşkilatçının) rekvizitləri

____________________________________________________________

(fiziki şəxs olduqda - soyadı, adı, ünvanı, hüquqi şəxs olduqda - adı, ünvanı, VÖEN-i (olduğu təqdirdə)

3. Sərnişin avtonəqliyyat vasitəsi haqqında məlumatlar

____________________________________________________________

____________________________________________________________

(markası və modeli, dövlət qeydiyyat nömrəsi, buraxılış kartının qeydiyyat nömrəsi, qeydiyyata alındığı dövlət, habelə icazə verilmiş oturacaq yerlərinin sayı)

4. İşçi heyəti üzvləri haqqında məlumat (soyadı və adı)

| **Sıra №-si** | **Soyadı və adı** | **Vəzifəsi** |
|---|---|---|
| | | |
| | | |

5. Sərnişinlərin daşınması marşrutunun sxemi (yola düşmə, təyinat və aralıq məntəqələri göstərilməklə)

| **Sıra №-si** | **Məntəqənin adı** | **Çatma vaxtı** | **Yola düşmə vaxtı** |
|---|---|---|---|
| | | | |
| | | | |

6. Sərnişinlərin siyahısı

| **Sıra №-si** | **Soyadı və adı** |
|---|---|
| | |
| | |

**Qeyd.** Qeyri-müntəzəm sərnişin daşınmaları üçün formulyar “AYNA” informasiya sistemində elektron qaydada doldurulduqdan sonra daşıyıcının və ya sifarişçinin (təşkilatçının) gücləndirilmiş elektron imzası ilə imzalanır.